

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 106 (21.007)

*6 iyun 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

İyunun 5-də Türkiyənin Bodrum şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) IV Zirvə Toplantısı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısında iştirak etmişdir.

Türkiyə Prezidenti Abdullah Gül zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra prezidentlər birgə foto çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.

* * *

İyunun 5-də Bodrumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə Toplantısı başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun birgə görüşü olmuşdur.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 4 iyun tarixli Sərəncamı ilə su təsərrüfatı və meliorasiya işçiləri təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları da var.

**"Tərəqqi" medalı ilə**

İbrahimov Məsim Abbas oğlu

Quliyev Məhəmməd Əhmədalı oğlu

Məmmədov İbrahim Süleyman oğlu

Məmmədov Səfər Məmməd oğlu

Rəhimov Həsən Heydər oğlu

## M.Ə.Cabbarzadənin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Müslüm Əli oğlu Cabbarzadə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 iyun 2014-cü il*

## R.A.İsmayılovun "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Abasət oğlu İsmayılov "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 iyun 2014-cü il*

## Ali təhsil ocağında "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib




***İyunun 5-də Naxçıvan Müəllimlər İnstitutunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilmişdir. Məşğələni giriş sözü ilə ali təhsil müəssisəsinin rektoru, professor Oruc Həsənli açaraq ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərindən bəhs etmişdir.***

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli "Heydər Əliyev və Azərbaycan" mövzusunda məruzə ilə çıxış etmişdir. Alim bildirmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyinin hər iki dövründə ölkəmizin hərtərəfli inkişafında misilsiz xidmətlər göstərmiş, bütün bilik və bacarığını Vətənimizin müstəqilliyinə, insanların xoşbəxt yaşamasına sərf etmişdir. Bu dahi şəxsiyyətin ideyaları hələ sağlığında ikən öyrənilməyə başlanılmışdır.

"Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin olunanadək ölkəmiz keçmiş SSRİ məkanında ən geridə qalmış aqrar respublikalardan biri idi", – deyən alim qeyd etmişdir ki, dahi rəhbərin həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuş, nəticədə, aqrar ölkədən aqrar-sənaye respublikasına çevrilmişdir. Məruzəçi vurğulamışdır ki, əldə olunmuş müsbət nəticələr digər sahələri də əhatə etmiş, gələcəkdə Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasında ilkin təməllər atılmışdır.

Bildirilmişdir ki, ötən əsrin sonlarında imperiyanın süqutundan sonra ölkəmiz müstəqilliyini əldə etsə də, bu müstəqillik çox kövrək olmuş, yalnız böyük öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın təhlükəsizliyi, hərtərəfli inkişafı təmin edilmişdir. Tarix üçün çox qısa bir dövrdə ölkəmizdə bütün sahələri əhatə edən köklü islahatlar aparılmış, nəticədə, Azərbaycan siyasi, iqtisadi, hərbi nüfuzu ilə dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, indi Azərbaycan istər regionda, istərsə də dünyada söz sahibinə malik ölkələrdən birinə çevrilmişdir.

Sonda tədbir iştirakçıları ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli filmə baxmışlar.

## "Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası təbiətinin öyrənilməsi vəziyyəti" adlı elmi konfrans

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda "Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası təbiətinin öyrənilməsi vəziyyəti" mövzusunda keçirilən elmi konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbov qeyd edib ki, 5 iyun bütün dünyada "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü" kimi qeyd edilir. Bu barədə qərar 16 dekabr 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 27-ci sessiyasında qəbul edilib. Həmçinin Baş Assambleyanın bu sessiyasında BMT sistemində yeni təşkilat – BMT Ətraf Mühit Proqramı yaradılıb. Hər il bu təşkilat tərəfindən Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü keçirilir. Belə bir günün keçirilməsinə 11 may 1971-ci ildə dünyanın 23 ölkəsinin 2200 elm və mədəniyyət xadiminin imzası ilə BMT-nin Baş katibinə ünvanlanan müraciət səbəb olub. Onlar "ya biz çirklənməni qurtarırıq, ya da çirklənmə bizi qurtarar" adlı müraciətləri ilə başəriyyətə ətraf mühitin çirklənməsi barədə xəbərdarlıq etmişdilər.

Vurğulanıb ki, Baş Assambleya bu günün qeyd edilməsi ilə bağlı qətnaməsində BMT-yə daxil olan ölkə və təşkilatları hər il həmin gün ərəfəsində ətraf mühitin qorunması və yaxşılaşdırılmasına xidmət edən tədbirlər həyata keçirməyə çağırır.

Ölkəmizdə, o cümlədən muxtar respublikamızda ətraf mühitin mühafizəsi, ekologiya sahəsində görülən işlər, həyata keçirilən dövlət və milli proqramların uğurlu nəticəsi barədə danışan AMEA-nın müxbir üzvü Tariyel Talıbov "Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası biomüxtəlifliyinin tədqiqi vəziyyəti" mövzusunda məruzə edib.

Elmi konfransda Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Əliyar İbrahimov "Naxçıvan Muxtar Respublikası florasının muxtariyyət illərində öyrənilməsi və istifadəsi", Zooloji tədqiqatlar şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Akif Bayramov "Naxçıvan faunasının muxtariyyət illərində öyrənilməsi nəticələri", Zooloji tədqiqatlar şöbəsinin böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Arzu Məmmədov "Muxtariyyət illərində orintoloji tədqiqatlar" mövzularında elmi məruzələr ediblər.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***İyunun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Arxiv İdarəsində çalışan dövlət qulluqçuları üçün "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirilmişdir.***

## Dövlət qulluqçuları üçün keçirilən seminarlar davam etdirilir



Tədbiri giriş sözü ilə komissiyanın sektor müdiri Arzuman İmanov açaraq dövlət qulluğuna qəbulun əsas prinsipləri və komissiyanın fəaliyyəti haqqında seminar iştirakçılarına məlumat vermişdir.

Komissiyanın şöbə müdiri Rafiq Nəcəfov çıxış edərək qeyd etmişdir ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Bildirilmişdir ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifə borclarını səmərəli yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur.

Vurğulanmışdır ki, dövlət qulluqçusu etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir. Həmçinin dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirməsinə təsir etməsinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Qeyd edilmişdir ki, etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

## Azərbaycanın özü qədər əbədi

# Böyük xilaskarlığın tarixi nümunəsi

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə nəzər salarkən aydın olur ki, ulu öndərin genişmiqyaslı fəaliyyətində müxtəlif xarakterli xilaskarlıq missiyası xüsusi mərhələ təşkil edir. Hələ keçən yüzilliyin 60-cı illərində Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini və sədri kimi açıqfikirli Azərbaycan ziyalılarının incidilməsinə, təqib və həbs edilməsinə mane olan, onları qoruyan xalqımızın böyük oğlu Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra SSRİ-yə daxil olan 15 müttəfiq respublika sırasında axırıncı, 14-15-ci yerlərdən birini tutan ölkəmizi durğunluqdan, ətalətdən, gerilikdən xilas etmiş, respublikamızı əsl inkişaf yoluna çıxarmışdır.***

Dahi şəxsiyyət həm də o zaman ölkədə başlanılan milli oyanışın öndəri kimi bu sahədə xidmətləri olan ziyalıları himayə etmiş, təqiblərdən, həbslərdən qorumuşdur. Ulu öndərimiz xilaskarlıq missiyasını o zamanlar müxtəlif xalqlara mənsub 300 milyona yaxın əhalinin vətəni sayılan SSRİ adlanan super dövlətin rəhbər elitasında çalışdığı 5 il ərzində də müxtəlif sahələrdə davam etdirmişdir. Yaxud da 1990-1993-cü illərdə – həyatı və siyasi fəaliyyətinin Naxçıvan dövründə, ulu öndərin özünün sözləri ilə desək, "taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladan, "olum, ya ölüm" dilemması qarşısında qalan, blokada şəraitində yaşayan, Azərbaycan rəhbərlərinin heç bir yardım etmədiyi, əksinə, "kor bağırsaq kimi kəsib atmaq" istədikləri Naxçıvan Muxtar Respublikasını erməni işğalından, əhalini aclıqdan, səfalətdən, soyuqdan donmaqdan, didərgin və qaçqın düşməkdən və sair bu kimi hallardan xilas etmişdir.

Ulu öndərin bu istiqamətdə fəaliyyəti ilə əlaqədar xatırlatdığımız bu fikirləri digər başqa faktlarla davam etdirmək olar.

Ancaq, fikrimizcə, ulu öndərin xilaskarlıq missiyasında 1993-cü ilin 15 iyunundan başlanan, Azərbaycanı, Azərbaycan dövlətçiliyini xilası missiyası, Azərbaycanın bir dövlət kimi dünya xəritəsindən silinməsinin qarşısının alınması sahəsindəki xidmətləri xüsusi yer tutur və ayrıca şərh olunmalıdır. Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası Türkiyə Respublikasının doqquzuncu prezidenti kimi tarixə düşmüş Süleyman Dəmirəlin də diqqətini cəlb etmiş və o demişdir ki, *"Çörçil ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçilin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində adamlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, De Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir. Amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, O, vardı..."*

Tam qətiyyətlə demək olar ki, ulu öndər Heydər Əliyevin ən böyük xilaskarlıq missiyası keçən əsrin 90-cı illərində, daha dəqiq desək, 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə başlanmışdır. Azərbaycana rəhbərliyinin birinci dövründə ümummilli lider Heydər Əliyevə yaranan böyük sevgi xalqda belə bir inam yaratmışdı ki, ölkəni fəlakətlərdən ancaq ulu öndər Heydər Əliyev xilas edə bilər. 22 noyabr 1988-ci ildə Naxçıvan şəhərinin baş meydanında, təxminən, 30 min nəfərin iştirak etdiyi mitinqdə Heydər Əliyevin portretlərinin qaldırılması heç də təsadüfi bir hadisə deyildi. Bu, xalqın yaranmış mürəkkəb vəziyyətdə ümummilli liderimizə xilaskar kimi baxmasından irəli gələn bir hal kimi qiymətləndirilməlidir. Bir sıra qadağalara, təzyiqlərə və təqiblərə baxmayaraq, Naxçıvan Şəhər Partiya Komitəsinin 17 mart 1990-cı ildə keçirilən konfransında Heydər Əliyevin Azərbaycan KP-nin XXXII Qurultayına nümayəndə seçilməsi də xalqın ona inanmasının, xilaskar timsalında ümidlə baxmasının nəticəsi idi.

Ulu öndərimizin 1990-cı ilin 22 iyulunda Naxçıvana qayıdışı zamanı muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş 80 min nəfərdən artıq adamın Naxçıvan şəhərinin baş meydanında ümummilli liderimizi yüksək coşqu ilə qarşılaması əhalinin ona xilaskar kimi baxmasından irəli gələn bir hadisə idi. Hadisələrin sonrakı inkişafı – ulu öndərin Naxçıvanda yaşaması, Azərbaycanın və Naxçıvanın ali qanunvericilik orqanlarına deputat seçilməsi, əvvəllər deputat, 3 sentyabr 1991-ci ildən etibarən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi bütün siyasi, mədəni-iqtisadi tədbirlər, Naxçıvanda baş verən hadisələrin beynəlxalq ictimaiyyətə çatdırılması, qonşu ölkələrin və dünyanın aparıcı dövlətlərinin başçıları, səfirləri ilə apardığı danışıqlar, keçirdiyi görüşlər nəticəsində Naxçıvanı ermənilərin labüd işğalından xilas etməsi xalqın ona xilaskar kimi baxması və qəbul etməsi sahəsində nə qədər haqlı olduğunu göstərdi.



Azərbaycan xalqı dahi rəhbər Heydər Əliyevin Naxçıvanda həyata keçirdiyi tədbirləri izləyir, nəticədə, ölkəni düşdüyü bəladan qurtaracaq yeganə şəxsiyyəti ancaq Heydər Əliyevin simasında görürdü. Məhz buna görə də 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər ziyalısı xalqın arzu və istəyini ifadə edərək "Səs" qəzeti vasitəsilə ulu öndərə müraciət etdi. "Azərbaycan Sizin sözünüzü gözləyir" adlanan müraciətdə deyilirdi: *"Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz adımızdan, həm də minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaranmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".*

Ümummilli liderimiz xalqın düşdüyü ağır vəziyyəti görür, təhlil edirdi. Vəziyyətin son dərəcə ağır olduğu dövrdə ulu öndər xalqın ona olan ümidlərini qıra, yaxasını kənara çəkə, baş verənlərə biganə qala, hadisələrə kənardan seyrçi mövqeyi tuta bilməzdi. Ona görə də ulu öndərimiz 24 oktyabrda müraciətə cavab vermiş və bu cavab mətbuatda nəşr olunmuşdur. Cavabda "Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərin həllinə biganə qalmağa heç kəsin haqqı yoxdur" fikrini vurğulayan ulu öndər partiyanın fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirmişdir. Bundan az sonra Bakı şəhərində keçirilməsinə imkan verilmədiyi üçün Azərbaycanın müxtəlif rayonlarından gələn 550-dən artıq nümayəndənin iştirakı ilə 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir.

Keçən yüzilliyin 80-ci illərinin sonlarından Azərbaycanda yaranan böhran 90-cı illərin əvvəllərində daha da dərinləşmiş, ölkə labüd uçurum qarşısında dayanmışdı. 1992-ci ilin 26 fevralında baş verən Xocalı faciəsi, mayın 8-də Şuşanın, 18-də Laçının işğalı, digər Azərbaycan torpaqlarının bir-birinin ardınca itirilməsi, xüsusilə 4 iyun 1993-cü ildə Gəncədə baş verən qiyam Azərbaycanın parçalanması, dövlətçiliyin itirilməsi, vətəndaş müharibəsinin başlanması, qardaş qanının axıdılması, günahsız insanların qətlə yetirilməsi, yaranmış vəziyyətdən istifadə edərək ermənilərin daha çox ərazimizi işğal etməsi və sair bu kimi təhlükələri reallaşdırmışdı. Artıq Gəncədə və digər yerlərdə qardaş qanı axıdılmışdı. Bakını tutmağı və hakimiyyəti zəbt etməyi qarşısına məqsəd qoyan Surət Hüseynov tabeliyində olan silahlı birləşmələrlə Gəncədən paytaxta doğru hərəkətə başlamış, paytaxtın lap yaxınlığına qədər gəlib çıxmışdı. Xaosun baş alıb getdiyi ölkə vətəndaş müharibəsinin astanasında idi. Ona görə də Azərbaycan xalqı öz nicatını, xilasını, yaranmış vəziyyətdən qurtuluşunu həmin vaxt Naxçıvanda yaşayan və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən xalqımızın böyük oğlu Heydər Əliyevdə görür və təkidlə onun Azərbaycanda hakimiyyətə qayıdışını tələb edirdi.

Beləliklə, xalqın təkidli tələbi ilə Bakıya gələn, ancaq ona təklif olunan yüksək vəzifəni qəbul etməyən, mayın 13-14-də Gəncədə yaranmış vəziyyətlə yerindəcə tanış olan, Surət Hüseynovla danışıqlar aparan görkəmli dövlət xadimi Heydər Əliyev ona deputatlar tərəfindən dəfələrlə edilən xahişləri qəbul etmiş və 15 iyun 1993-cü ildə keçirilən Milli Məclisin fövqəladə sessiyasında Ali Sovetin Sədri seçilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu hadisəni – ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışını belə səciyyələndirmişdir: ***"...Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskarlıq missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir".***

Həmin tarixi gündən etibarən ulu öndər Azərbaycanın qurtuluşu naminə xilaskarlıq missiyasına başlamışdır. Ona görə də 15 iyun Azərbaycanın ən yeni dövr tarixinə "Qurtuluş Günü" kimi daxil olmuşdur. Akademik İsa Həbibbəyli bu haqda yazır ki, 15 iyun 1993-cü il hadisəsi ilə Azərbaycanda Böyük Qurtuluş baş vermişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda Böyük Qurtuluşun banisidir. Böyük Qurtuluş ölkəmizin xilasının etibarlı təminatı və möhkəm təməlidir. Təsadüfi deyildir ki, bu hadisədən 4 il sonra, 1997-ci ilin 27 iyununda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq, bu günü – 15 iyunu "Milli Qurtuluş Günü" bayramı kimi rəsmiləşdirmişdir. Qurtuluş mübarizəsinə, xilaskarlıq missiyasına başlayan ulu öndərin qarşısında çox ağır, çətin və mürəkkəb vəzifə dururdu. Ölkədə vətəndaş müharibəsi başlanmaqda, dövlət parçalanmaqda, dövlətçilik itirilməkdə, torpaqlarımız ermənilər tərəfindən işğal edilməkdə, əhali çaşqın vəziyyətdə idi.

Məhz belə bir ağır dövrdə, ikinci dəfə hakimiyyətə qayıdışından, təxminən, 2 ay sonra "Sobesednik" qəzetinin müxbiri ilə 1993-cü ilin avqustunda baş tutan müsahibəsində Ona verilən "Bu gün Azərbaycanın taleyi Sizin əlinizdədir. Çox ağır yük deyilmi?" sualına ümummilli lider belə cavab vermişdi: ***"Bugünkü vəzifəni tutmaq arzusunda deyildim. Hakimiyyətin ləzzətini görmüşəm – düşünüldüyü qədər şirin deyil. Hakimiyyətdən çəkilməyə də hazıram. Lakin bu gün adamlar mənə baxırlar. Özü də ümidlə baxırlar. ...bu dəhşətli anda hər şeyi atıb getmək adamlara xəyanət etmək deməkdir".*** Göründüyü kimi, ölkədə vəziyyət nə qədər ağır olsa da, ulu öndər hakimiyyətdən getməyi, başqa sözlə desək, çətin anda meydandan qaçmağı xalqa xəyanət kimi qiymətləndirmiş və özünün dəfələrlə vurğuladığı kimi, lazım gələrsə, həyatı bahasına olsa da, bilik və zəngin təcrübəsinə, xalqın köməyinə arxalanaraq bu çətin işin öhdəsindən şərəflə gəlmişdir.

Milli Məclisin 1997-ci ilin iyununda keçirilən və 15 iyunu "Milli Qurtuluş Günü" elan edən tarixi sessiyasının qərarında bu haqda belə deyilir: *"Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qaytarılması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".*

Böyük təcrübəyə malik olan görkəmli dövlət xadimi Heydər Əliyev səbir və təmkinlə vəziyyəti qaydaya salmağa, yoluna qoymağa başlamışdır. Bu işdə ona daim arxalandığı, güvəndiyi Azərbaycan xalqı dayaq durmuş, kömək etmişdir. Heydər-xalq, xalq-Heydər birliyi öz sözünü demişdir. Xalqın dəstəyi ilə "Talış-Muğan Respublikası" ləğv olunmuş, ayrı-ayrı bölgələrdə baş qaldıran separatçılıq meyilləri aradan qaldırılmışdır. 3 oktyabr 1993-cü ildə Azərbaycan Prezidenti seçilən Heydər Əliyev bilirdi ki, Ermənistanla müharibənin davam etdiyi bir şəraitdə nə xilaskarlıq missiyasını yerinə yetirmək, nə xalqı bu bəladan qurtarmaq, nə də müstəqil Azərbaycan dövlətini qurub-yaratmaq mümkün olacaqdır. Ona görə də ümummilli lider 1994-cü ilin may ayında Ermənistanla atəşkəs haqqında müqavilə imzalanmasına nail olmuş və bununla da, ölkə miqyasında həyata keçirilməsi nəzərdə tutulan titanik işlərin təhlükəsizliyi təmin edilmişdir.

Ancaq vəziyyət bununla sabitləşmədi. Azərbaycanda sabitliyin bərpa olunmasında, ölkənin inkişafında maraqlı olmayan daxili qüvvələr hələ də Azərbaycanda vəziyyəti gərginləşdirməkdə idilər. Bakıda və bölgələrdə vaxtilə ermənilərə qarşı yaradılmış silahlı birləşmələr bəzi adamların rəhbərliyi ilə artıq dövlət orqanlarına, əhaliyə qarşı təzyiq vasitəsinə çevrilmişdilər və özbaşınalıqla, qanunsuz hərəkətlərlə, soyğunçuluqla, talançılıqla məşğul olurdular, əhalini gərgin vəziyyətdə saxlayırdılar. Ən pis cəhət onda idi ki, bu silahlı dəstələrə, hətta qoşun birləşmələrinə rəhbərlik edənlər içərisində yüksəkvəzifəli dövlət nümayəndələri də var idi.

**Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası daxilində dövlətçiliyimiz üçün təhlükə törədən bütün qüvvələrin qarşısını qətiyyətlə almış, onları və rəhbərlik etdiyi silahlı birləşmələri zərərsizləşdirmiş, özünün xilaskarlıq missiyasını şərəflə başa çatdırmış və Azərbaycanın ən yeni dövr tarixinə *QURTULUŞ MÜBARİZƏSİNİN QALİBİ, BÖYÜK QURTULUŞUN BANİSİ* kimi daxil olmuşdur. Bundan sonra ümummilli liderimiz Heydər Əliyev hüquqi, iqtisadi və demokratik sahədə kardinal islahatlar proqramının həyata keçirilməsinə start vermiş və Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmiş, ölkəmizi inkişaf etdirmişdir. Məhz bunu nəzərə alaraq akademik İsmayıl Hacıyev haqlı olaraq yazır ki, əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bütün bunları təhlil edərək akademik Cəlal Əliyev yazır:** *"Zamanı, bütöv bir dövrü, bəzən bir anı tarixləşdirən, əbədiləşdirən qüdrətli, dahi şəxsiyyətlərdir. Bu gün Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədiyyətədək yaşatmaq üçün Heydər Əliyev irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi sərvətlər xəzinəsidir. Azərbaycanın yüz il bundan sonrakı mövcudluğu da Heydər Əliyevin adı ilə bağlı olacaqdır. Heydər Əliyev şərəfli ömrünün son anına qədər bu amalla yaşadı, yaratdı, müasir Azərbaycanın dövlətçilik tarixinə adını xilaskar, qurucu, müdrik və yenilməz dövlət xadimi kimi yazdı".*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor***

*Naxçıvanın görkəmli maarifpərvər ziyalıları müəllim əməyinə yüksək qiymət vermiş və böyüyən nəslin təlim-tərbiyəsində müəllimin rolunu yüksək dəyərləndirmişlər. Müəllim zəhmətinə yüksək qiymət verən Məhəmməd Tağı Sidqi yazırdı ki, "Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir". M.T. Sidqinin fikrincə, müəllim təlim-tərbiyə işində böyük qüvvədir, müəllim uşaqlara bilik verir, ona görə də savadlı olmalıdır. Savadsız müəllimdən uşaqların təlim və tərbiyəsini gözləmək dəmirçidən saatsazlıq tələb etmək kimidir.*

## Naxçıvanda müəllim kadrların hazırlığı və maarifçiliyin inkişafında onların rolu

XX əsrin əvvəllərində görkəmli Naxçıvan ziyalıları müəllim kadrlarının hazırlanması ilə bağlı mətbuatda tez-tez çıxış edirdilər. Onlar öz yazılarında ana dilində dərs deyə bilən müəllimlərin hazırlanmasını dövrün əsas tələbi kimi qarşıya qoymuşlar. Bu sahədə Eynəli bəy Sultanov, Əlimməmməd Xəlilov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Süleymanov, Məhəmməd ağa Şahtaxtlı, Sadıq Xəlilov, Məmmədqulu bəy Kəngərli, Əbülqasım Sultanov, Qurbanəli Şərifov, Əliqulu Qəmküsar, Mirzə Cəlil Şürbi və başqaları xüsusilə fərqlənirdilər.

XX əsrin əvvəllərində Naxçıvanda maarifin inkişafını ləngidən əsas məsələlərdən biri bölgələrdə müəllim kadrların çatışmazlığı idi. 1921-ci ildən Xalq Maarif Komissarlığının nəzdində qısamüddətli kurs təşkil edilmişdir. Bakıda və digər şəhərlərdəki kurslarda təhsil almaq üçün müdavimlər göndərilirdi. Məsələn, bu dövrdə Qori Müəllimlər Seminariyasında azərbaycanlılardan çox az müəllim hazırlanmışdı. 1920-ci ilə kimi keçən 50 il ərzində Qafqazda 262 nəfər azərbaycanlı müəllim hazırlanmışdı ki, bunun da 63 nəfəri İrəvan Müəllimlər Seminariyasında təhsil almışdı.

Naxçıvanda 1920-ci ilə qədər cəmi 4 kişi müəllimin – Cəfər Məmmədovun, Mirzə Ələkbər Süleymanovun, Mirzə Kazımbəyovun, Həsən Qaziyevin və 2 qadın müəllimin – Nazlı Nəcəfova-Tahirovanın və Xədicə Səfərəliyevanın olduğu qeyd edilir. Naxçıvan Xalq Komissarları Sovetinin 22 dekabr 1922-ci il tarixli dekreti ilə başqa sahələrdə işləyən müəllimlər Xalq Maarif Komissarlığının sərəncamına göndərilmiş, bütün müəllimlər hərbi mükəlləfiyyətdən azad edilmişdilər. 1922-ci il avqust ayının 28-də Naxçıvan şəhərindəki teatr binasında keçirilən Naxçıvan Müəllimlərinin I Qurultayında Naxçıvanda müəllim çatışmazlığı ciddi müzakirə edilmiş və 1 noyabr 1922-ci ildə Naxçıvan Müəllimlər Seminariyası açmaq haqqında qərar qəbul olunmuşdur. Bir neçə aylıq müəyyən hazırlıq işlərindən sonra seminariyanın açılması üçün maddi-texniki baza yaradılmış və seminariya fəaliyyətə başlamışdır. Naxçıvan üçün kadr hazırlığında çox mühüm rol oynayacaq Naxçıvan Müəllimlər Seminariyasına Xəlilağa Hacılarov ilk direktor, Əbdüləzim Rüstəmov onun köməkçisi və coğrafiya müəllimi təyin olunmuşlar. Seminariyanın müəllimləri sırasında Həsən Səfərov, Əbdüləzim Rüstəmov, Həsən Qaziyev, İbrahimxəlil Axundov, Əli Xəlilov və başqaları var idi.

Naxçıvan Müəllimlər Seminariyası bir il fəaliyyət göstərəndən sonra pedaqoji texnikuma çevrilmiş və 1923-cü ilin dekabrından Ordubad şəhərində fəaliyyət göstərməyə başlamışdır. Texnikumda pedaqoji şura, metodik təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılmışdı. Bu pedaqoji texnikumda 1925-1926-cı tədris ilində 119 nəfər tələbə təhsil alırdı. Növbəti ildə texnikumun ilk buraxılışı olmuşdur ki, bu zaman 18 nəfər məzun müəllimlik diplomu alaraq muxtar respublika məktəblərində işləməyə başlamışdır. Bunların sırasında Zəngilandan Əkbər Abbasov, Vedibasardan Abdulla Kərimov, Eynalı Əlizadə, Ordubaddan Mirəhməd Seyidzadə, Mirmehdi Seyidzadə, Naxçıvan şəhərindən Əkbər Fərəcov, Əli Fərəcov, Əli Axundov, Aqil Mirişli, Kazım Talıbov, Nemət Novruzov, Əbdüləli Tahirzadə, Səməd Seyidli və başqalarının adlarını çəkmək olar. 1938-1939-cu tədris ilində isə Naxçıvan Pedaqoji Texnikumunu 92 nəfər gənc bitirərək pedaqoji fəaliyyətə başlamışdır. Bu gənclər sonralar Azərbaycanda ictimai-siyasi fikrin və xalq maarifinin inkişafında mühüm rol oynamışlar. Həmin məzunlar arasında dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyev də var idi. Ulu öndər 25 iyun 1939-cu il tarixdə həmin texnikumu bitirmiş və ona 2027 №-li diplom verilmişdir. 1941-ci ildə isə Naxçıvan Pedaqoji Texnikumu ləğv edilərək Ordubad Pedaqoji Texnikumuna birləşdirilmişdir. Bu texnikum muxtar respublika üçün müəllim kadrların hazırlanmasında böyük rol oynamışdır. Yarandığı gündən 1941-ci ilə qədər texnikumda 1071 nəfər müəllim hazırlanmışdır ki, onlardan 182 nəfəri qadın olmuşdur.

Bu qərarın qəbul edilməsinin əsas səbəbi Naxçıvan şəhərində yeni təhsil ocağının, yəni Müəllimlər İnstitutunun yaradılması olmuşdur. Naxçıvan MSSR-də pedaqoji məktəb olan Müəllimlər İnstitutu muxtar respublika Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılmış və həmin il sentyabrın 15-də iki fakültə ilə fəaliyyətə başlamışdır. Bu instituta ilk qəbulda 180 nəfər tələbə kontingenti nəzərdə tutulsa da, cəmi 129 nəfər tələbə qəbul edilmişdir. Onlardan cəmi 31 nəfəri qız olmuşdu. Növbəti 1940-1941-ci tədris ilində Naxçıvan Müəllimlər İnstitutunda artıq 4 fakültə – Dil-ədəbiyyat, Fizika-riyaziyyat, Təbiət-coğrafiya və Tarix fakültələri açılmışdı ki, bu fakültələrdə, ümumilikdə, 230 nəfər tələbə oxumuşdur. Lakin I kursa qəbul edilənlərin bir hissəsi sovet ordusuna səfərbər edildiyindən bir qism tələbə təhsilini başa vura bilməmişdir. 1941-ci ildə institutun ilk məzunlarının sayı cəmi 65 nəfər təşkil etmişdir. Onların 52 nəfəri Dil-ədəbiyyat, 13 nəfəri Fizika-riyaziyyat fakültələrini bitirmişdir. İlk məzunlardan Qəzənfər Əkbərov, Nazlı Tahirova, Mahmud Axundov, Qasım Hacıyev, İsmayıl Sadıqov, Yunis Qasımov, Salman Ağayev və başqalarının adlarını çəkmək olar. İnstituta qəbul isə partiya və komsomol təşkilatlarının zəmanəti ilə aparılmışdır. İnstitutun professor-müəllim heyətinin formalaşdırılmasında, həmin heyətin tərkibində və idarə olunmasında institut rəhbərliyinin, xüsusən direktor Lətif Hüseynzadənin mühüm xidmətləri olmuşdur. Mikayıl Müşfiq, Əhməd Cavad və digər görkəmli ziyalılarla eyni sinifdə təhsil alan Lətif Hüseynzadə 1934-1935-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda müəllim, sonralar dərs hissə müdiri işləmiş, 1952-1953-cü tədris ilində isə artıq Naxçıvan Müəllimlər İnstitutuna direktor təyin olunmuşdu.

Naxçıvan müəllimlərinin qurultayının qərarına uyğun olaraq, 1924-cü ilin oktyabrında Naxçıvan Muxtar Respublikasında qadın seminariyası fəaliyyətə başlamışdır. Seminariyaya rəhbərlik N.Nəcəfovaya tapşırılmışdır. 1925-1926-cı tədris ilində seminariya Qadın Pedaqoji Texnikumuna çevrilmişdir. Texnikumun ilk direktoru Fatma Əlizadə olmuşdur. Həmin ildə texnikumda 80 nəfər qız təhsil almışdır. Bu texnikumda Xədicə Yusifbəyli, Şövkət Mahmudbəyova, Sabirə Güləhmədova və digər tanınmış qadın müəllimlər dərs demişlər.

XX əsrin əvvəllərində Naxçıvanda qadın müəllimlərin hazırlanması üçün qadın pedaqoji kursları da fəaliyyət göstərmişdir. İlk belə kurs 1922-ci ilin noyabrında açılmış və orada 60 nəfər qadın müəllim hazırlanmışdır. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin qərarı ilə 1928-1929-cu tədris ilində kişi və qadın texnikumları birləşdirilmişdir. Bu isə, öz növbəsində, yüksək səviyyədə müəllim kadrların hazırlanmasına rəvac vermişdir. Həmin ildə Naxçıvan MSSR-dəki bu texnikumda 411 nəfər tələbə oxuyurdu ki, onlardan 71 nəfəri qadın idi.

XX əsrin əvvəllərində Naxçıvanda müəllim hazırlığının digər forması naxçıvanlı gənclərin Azərbaycanın və SSRİ-nin ali məktəblərinə göndərilməsi olmuşdur. 1922-1923-cü tədris ilində 110 nəfər gənc müxtəlif ali məktəblərə göndərilmiş və onlara təqaüd verilmişdir. Bütün bu tədbirlər qısa müddətdə öz bəhrəsini vermişdir. Məsələn, 1913-1914-cü illərə nisbətən Naxçıvanda müəllimlərin sayı 1924-1925-ci tədris ilində 125,4, 1925-1926-cı tədris ilində isə 171,4 faiz artmışdır. 1921-1922-ci illərdə Naxçıvanda 86 nəfər (onlardan 2 nəfəri qadın idi), 1924-1925-ci illərdə 154 nəfər (4 nəfəri qadın idi), 1930-1931-ci illərdə isə 277 nəfər (72 nəfəri qadın olmuşdur) müəllim çalışmışdır. Müəllim hazırlığını genişləndirmək məqsədilə 1937-1938-ci tədris ilində artıq Ordubad şəhərində də pedaqoji texnikum açılmışdı ki, bu texnikumun ilk direktoru vəzifəsinə Mehdi Mehdiyev təyin edilmişdi. Texnikuma birinci ildə 7 nəfər qız olmaqla, 57 nəfər qəbul olunmuşdu. Növbəti tədris ilində isə onların sayı 213 nəfərə çatdırılmışdı.

Təhsil sahəsində həyata keçirilmiş bu mütərəqqi tədbirlər Naxçıvanda maarifçilik ideyalarının inkişafına və yerli ziyalı sinfinin formalaşmasına təkan vermişdir. Həmin dövrdə maarif və mədəniyyətdə əldə edilmiş nailiyyətlər gələcək uğurların əsasını qoymuşdur.

**Taleh XƏLİLOV**
*Naxçıvan Dövlət Universitetinin baş metodisti*

*Axtarışlar, tapıntılar*

## Podpolkovnik III Ehsan xan Naxçıvanski-Kəngərli



Soldan 1-ci III Ehsan xan, qardaşları, bacısı və müəllimi Anna İvanovna ilə birlikdə, 1900-cü il

Birinci Dünya müharibəsinin başlanmasından 100 il ötür. Tarixi sənədləri vərəqləyib Birinci Dünya müharibəsində həmyerlilərimizin də cəsurluqları, hünərləri haqqında oxuduqca sevinməyə bilmirsən. Çünki əsl döyüşçü mükafat üçün yox, doğulduğu və yaşadığı ana torpaq uğrunda döyüşəndir. Onun özünün xəbəri olmadan verilən təltiflər və mükafatlar isə heç nəyin diqqətdən kənarda qalmadığını təsdiqləyir. Belə cəsur, qorxmaz süvari döyüşçülərdən biri də cəmi 26 il ömür sürmüş III Ehsan xan Cəfərqulu xan oğlu Naxçıvanski-Kəngərlidir. O, 1894-cü il aprelin 1-də Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini ailə mühitində alan III Ehsan xan XX yüzilliyin əvvəllərində Sankt-Peterburqdakı Paj korpusunda oxumağa getmişdir. Babalarının və atasının Rusiya imperiyasında hərbi xidmətlərini nəzərə alaraq ona əlahəzrətin Paj korpusunda oxumağa rəsmən icazə verilmişdir.

1913-cü ildə III Ehsan xan Paj korpusunu birinci dərəcəli diploma bitirmiş və saray (leyb) qvardiyasının korneti (kiçik zabiti) hərbi rütbəsini almışdır. Həmin ilin 6 avqustunda Rusiya çarının Varşava şəhərində (Polşa) yerləşən Ulan (nizəli süvari əsgərlər) polkuna hərbi xidmətə göndərilmişdir. III Ehsan xan Varşavadakı Ulan polkunun tərkibində olan 6-cı eskadronda (piyada qoşununda bölüyə bərabər süvari qoşun hissəsi) kiçik zabit rütbəsi ilə qeydə alınmışdır.

Varşavadakı Ulan polkunda nümunəvi və intizamlı əsgər olan III Ehsan xan sonralar Birinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. Müharibə başlayanda 20 yaşı olmasına baxmayaraq, cəbhədə göstərdiyi hünər çar hökuməti tərəfindən yüksək qiymətləndirilir. 1914-cü ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni (bant və qılınclarla) və 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni (üzərində "İgidliyinə görə" yazılmış) ilə təltif edilmişdir. 30 iyul 1915-ci ildə ona poruçik hərbi rütbəsi verilmişdir. Həmin ildə o, ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılınclarla birlikdə), üçüncü dərəcəli "Müqəddəs Anna" (bantla və qılınclarla) ordenlərini də almışdır.

1917-ci ildə hakimiyyəti ələ keçirən müvəqqəti hökumət orduya nəzarət edə bilmədiyindən hərbi hissələrdə intizamsızlıq baş alıb gedir. Ona görə də digər hərbçi Naxçıvanskilər kimi, III Ehsan xan da çətin vəziyyətdə qalır. O, həmin vaxtlar general L.Q.Kornilovun (1870-1918) yaratdığı Könüllü ordunun tərkibinə daxil olmuşdur.

Qeyd edək ki, L.Kornilov saray katibinin ailəsində doğulmuşdur. 1914-cü ildə piyada qoşun briqadasının, sonralar isə diviziyasının komandiri olmuşdur. Müharibədə əsir düşən L.Kornilov 1915-ci ildən 1916-cı ilin iyulunadək həbs düşərgələrində qalmış, sonralar əsirlikdən qaçmışdır. 1917-ci ilin fevral inqilabından sonra Petroqradda qoşun komandiri və 18 iyul tarixdən cənub-qərb cəbhəsinin komandiri olmuşdur. 2 sentyabr 1917-ci ildə həbs edilmiş və təsadüf nəticəsində həmin ilin 19 noyabrında Dona qaçmış və orada könüllü ordu yaratmışdı. Onun yaratdığı orduya Qafqazın yerli süvari diviziyasının tərkibindəki Tatar polku və təkinlərdən ibarət türkmən döyüşçülərin də polku daxil olmuşdur. L.Kornilov hər iki polkun döyüşçülərinə çox inanırdı. O, türkməncə bildiyindən döyüşçülər ona sədaqət göstərirdilər. III Ehsan xan da bu könüllü orduya daxil olmuşdur. General L.Kornilovun yaratdığı könüllü ordu 1917-ci ildə müvəqqəti hökumətə qarşı qiyama qalxır. 1917-ci ilin avqust ayında III Ehsan xan da L.Kornilov qiyamının iştirakçısı olur. Petroqrada müvəqqəti hökuməti devirməyə gedən könüllü ordu müəyyən səbəblərə görə uğursuzluğa düçar olur.

Həmin ilin sonlarında qardaşları III Kalbalı xan, Cəmşid xan və qohumları ilə Naxçıvana qayıdan III Ehsan xan erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüşdür.

Rusiyadan Gəncəyə qayıdan Tatar polkuna qardaşı Cəmşid xan Naxçıvanski komandirlik etdiyindən III Ehsan xan da Gəncəyə getməli olur. Bakının ermənilərdən xilas edilməsində göstərdiyi şücaətə görə, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi ona podpolkovnik hərbi rütbəsi vermişdir. O, üçüncü Şəki Süvari Polkunun komandir köməkçisi olmuşdur. III Ehsan xan bolşeviklərin əleyhinə olan üsyanın da iştirakçısı olduğundan, bəzi ehtimallara görə, 1920-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir.

Cəsur döyüşçü III Ehsan xanın həlak olması ilə bağlı bəzi tədqiqatçılar onun Qarabağda, yaxud Kürdəmirdə güllələndiyini yazırlar. Qeyd edək ki, istər çar, istərsə də bolşevik Rusiyasında güllələnmələr sənədlərin məlumatına əsasən, hər zaman qeydə alınırmış. Xan Naxçıvanskilər də təsadüfi adamlar olmadığından, yəqin ki, heç olmazsa, "üçlüyün" ("troykanın") hökmü vardır. Axı həmin illərdə səhra məhkəməsi də fəaliyyət göstərmişdir. Ona görə də biz həmin illərə aid sənədlərin axtarışındayıq.

Buna səbəb isə əlimizdə olan bir məktubdur. Həmin məktubu 1990-cı ildə Moskvada yaşayan həmyerlimiz Hüseyn Teymurlu Naxçıvanda yaşayan qohumu Qadir Həsənəliyevə yazmışdır (məktub 25 may 1990-cı ildə yazılmışdır). Məktubun mətnindən görünür ki, Moskvada gözdən-könüldən uzaq bir yerdə – Saltıkovka qəsəbəsində yaşayan Hüseyn Teymurlu Naxçıvanskiləri çox yaxşı tanıyırmış. Onun yazdığına görə, onların Xan sarayının yaxınlığında evləri varmış. O da məcbur qalıb öz familiyasını dəyişmişdir. Hüseyn Teymurlu Naxçıvanın mötəbər əsilzadələrindən biri olan Heydər bəy Bənəniyarskinin oğludur.

1990-cı ilin çətin günlərində Naxçıvanla yaxından əlaqə saxlayan qocaman alim azacıq da olsa, Xan Naxçıvanskilər haqqında xatirələrini qələmə almış və məktublarında naxçıvanlı ziyalıları maraqlandıran suallara cavab yazmışdır. Məktubda tariximiz üçün maraqlı və əhəmiyyətli faktlar əks olunmuşdur. Biz H.Teymurlu ilə bağlı ayrıca yazı çap etmək niyyətindəyik. Çünki onun Moskvada yaşayan qızlarında zəngin şəxsi albomu var. Fotoşəkilləri bizə göndərməyə razılıq veriblər. III Ehsan xan haqqında onun yazdığını (azacıq ixtisarla) eyni ilə köçürürük: "1929-30-cu illərdə mən Muğanda işləyirdim. Bizim dəstədə yaşlı bir salyanlı kuryer var idi. O, mənim naxçıvanlı olduğumu bilirdi. Bir gün o, mənə Əhsan barəsində belə bir söhbət elədi: "Mən 1918-20-ci illərdə Qızıl Orduda əsgərlik edirdim. Bizim komandirimiz Əhsan Naxçıvanski idi. Eskadron hücuma gedəndə həmişə eskadronun qarşısında olardı. Çox igid adam idi. Əhsan xan çox hirsli idi. Bir gün onu ştaba çağırdılar. O getdi qərargaha. Bir neçə gündən sonra biz eşitdik ki, onu güllələyiblər. Onun yerinə başqa komandir gəldi".

Mən o kişidən soruşmadım ki, bu hadisə hansı rayonda, hansı cəbhədə olubdur.

Əhsən xan cavan vaxtı (müharibələrdən əvvəl) süvarilərin təlimi zamanı at çapanda atdan yıxılıb, daldan qaçan süvarilərin bir neçəsi onun üstündən keçiblər. Buna görə də onun başı (kəlləsi) qırılmışdı. Onun başından qırılan sümükləri həkimlər çıxarıb yerinə gümüş plastinkalar qoymuşdular. Odur ki, o, çox əsəbi idi".

Bu məlumatdan aydın olur ki, III Ehsan xan da qardaşı Cəmşid xan Naxçıvanski kimi Qızıl Orduda xidmət etmişdir. Amma başından zədə alan III Ehsan xanın əmisidir. Çünki onun əmisi II Ehsan xanın başından zədə alması haqqında arxiv sənədlərində məlumatlar vardır. Lakin III Ehsan xanın başından zədə alması haqda sənədlər yoxdur. Bir də ki, III Ehsan xan güllələnəndə cavan idi – 26 yaşında. Bu məktub da təsdiqləyir ki, III Ehsan xanı güllələyiblər. Həmin illərin sənədləri isə Gürcüstan təhlükəsizlik orqanlarının arxivində saxlanılır. Mən o arxivdə işləmişəm. Maraqlandığım həmyerlilərimiz haqqında, sadəcə, arayışlar təqdim ediblər. Mənsə bildirdim ki, istintaq materiallarını oxumaq istəyirəm. Əvvəlcə razılıq verdilər. Sonra isə "gələcəkdə bu məsələyə baxarıq" dedilər.

Çar Rusiyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və sovet hökumətinin ordusunun igid süvarisi III Ehsan xan Naxçıvanskinin-Kəngərlinin həyatı və fəaliyyəti müasir gəncliyimiz üçün nümunədir.

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

## Milli Qurtuluş Gününə həsr olunmuş konsert

*Dünən Naxçıvan Dövlət Filarmoniyasında muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş konsert proqramı olmuşdur.*






Tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq qeyd etmişdir ki, Milli Qurtuluş Günü müasir Azərbaycan dövlətinin tarixində mühüm mərhələdir və bu günü yada saldıqca Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri bir daha gözlərimiz önündə canlanır. Ona görə də bugünkü əmin-amanlıq üçün hər bir Azərbaycan vətəndaşı ulu öndər Heydər Əliyevi böyük sevgi və ehtiramla anır. Azərbaycan dövlətçiliyinin xilası ümummilli liderimiz Heydər Əliyevin yorulmaz və gələcəyə hesablanmış müdrik fəaliyyəti ilə bağlıdır. Məhz ulu öndərimizin dahiyanə dövlətçilik təcrübəsi və uzaqgörənliyi 21 il bundan əvvəl Vətənimizi və dövlətimizi görünməmiş bəlalardan qurtardı.

Nazir bildirmişdir ki, ulu öndər öz xilaskarlıq missiyası ilə Azərbaycan torpağına həm də quruculuq və inkişaf gətirmiş, insanlarımızda sabaha inam oyatmışdır. Xalqımız Milli Qurtuluş Gününü böyük sevinc və qürur hissi ilə qeyd edir.

Sonra konsertdə iştirak edən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin bir qrupuna nazirliyin fəxri fərmanları təqdim edilmişdir.

Konsertdə muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin ifasında Azərbaycan bəstəkarlarından Niyazi, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Tofiq Quliyev, Vasif Adıgözəlov və başqalarının əsərləri səslənmişdir. Məktəbli musiqiçilərin ifasında səslənən muğam, rəqs və aşıq musiqiləri, həmçinin Avropa bəstəkarlarının əsərləri maraqla qarşılanmışdır.

## Konsert Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuşdu

*İyunun 5-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Musiqi Kollecinin simfonik orkestrinin konserti olmuşdur.*



Konsertdən əvvəl kollecin müəllimi Səməd Əsgərov çıxış edərək bildirmişdir ki, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən, Naxçıvan Muxtar Respublikası yaradılmışdır. Bununla da, qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirilmişdir. Ötən əsrin sonlarında, bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanılmasına imkan yaratmışdır.

"Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm amil olmuşdur", – deyən Səməd Əsgərov bu statusun ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvandakı fəaliyyəti dövründə Naxçıvanın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizədə xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Sonra kollecin simfonik orkestrinin konserti olmuşdur. Konsertdə klassik Azərbaycan musiqisi nümunələri, bəstəkar mahnıları ifa edilmişdir. Orkestrin ifasında səsləndirilən Ü.Hacıbəylinin "Azərbaycan Respublikasının Dövlət himni", R.Məmmədovun "Doğma Naxçıvan", M.Maqomayevin "Azərbaycan", F.Əmirovun "Azərbaycan süitası" və digər musiqi nümunələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

**Sona MİRZƏYEVA**

## Üzgüçülük idman növünə maraq artıb

### *Bunun üçün muxtar respublikamızda hər cür şərait yaradılıb*



***Naxçıvan Muxtar Respublikasında idmanın bütün sahələrinin inkişafı üçün geniş imkanlar yaradılıb. Yeniyetmə və gənclərin bu sahəyə istiqamətlənməsi üçün muxtar respublikada idman kompleksləri, futbol meydançaları və idman zalları istifadəyə verilib. Təbii ki, idman sahəsində müasir infrastrukturun yaradılması, idmanın inkişafı və idmançılarımızın beynəlxalq arenalarda uğur qazanması muxtar respublika rəhbərinin bu sahəyə diqqət və qayğısının nəticəsidir.***

"İdman bir ölkəni dünya arenasında tanıdan ən uğurlu siyasətdir". Bu deyim müasir idmanda məşhur şüar kimi idmançıların ölkələrini layiqincə təmsil etmək üçün onlara verilən əlavə motivasiya xarakteri daşımaqdadır. Son illər Azərbaycan bayrağının dünyanın müxtəlif arenalarında dalğalanması ölkə başçısının idman sahəsində apardığı uğurlu siyasətin bariz göstəricisidir. Naxçıvan Muxtar Respublikası aparılan bu uğurlu siyasətdə daim müstəsna rol oynamışdır. İdmançılarımızın Azərbaycan yığmalarına dəvəti muxtar respublikada bu sahənin artıq tam püxtələşdiyindən xəbər verir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman obyektlərindən biri də Üzgüçülük Mərkəzidir. Qapıları daim üzgüçülük həvəskarlarına və bu sahənin idmançılarına açıq olan mərkəzdə üzgüçülüyün sirlərini öyrənmək üçün hər cür şərait yaradılıb. Artıq bu aydan başlayaraq bura sıravi insanların da axını diqqətdən yayınmır. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbovla söhbətimizdə bu idman növünə olan marağın səbəblərini öyrənməyə çalışdıq: "2002-ci ildən etibarən İlham Əliyev adına Olimpiya-İdman Kompleksi fəaliyyətə başlayıb. Üzgüçülük Mərkəzi isə 2004-cü ildən idmançıların, Naxçıvan sakinlərinin ixtiyarına verilib. Artıq yay mövsümü başlayır və mərkəzə müraciət edənlərin də sayı artmaqdadır. Bizim məqsədimiz üzgüçülüklə məşğul olmağa gələn insanların rahatlığını təmin etməkdir. Ayın əvvəlindən başlayaraq bu idman növünə olan maraq da xeyli artıb".

Müsahibim Üzgüçülük Mərkəzində fəaliyyət göstərən qruplar haqda da məlumat verdi. Bildirdi ki, hazırda Üzgüçülük Mərkəzində iki qrup fəaliyyət göstərir. Həftənin 3 günü qadınlar qrupu, digər günlərdə isə kişilər qrupu mərkəzin xidmətlərindən yararlanırlar. Bununla yanaşı, 3 müəllimimiz bura gələn insanlara üzməyi öyrədir: bunların ikisi kişi, biri qadındır. Bu il mərkəzə müraciət edən qadınların sayı artıb.

Təbii ki, üzgüçülüyə marağın artmasının əsas səbəbi mərkəzdə yaradılan şərait və təmizlikdir. Kompleksin direktoru Üzgüçülük Mərkəzinin su sisteminin daim yeniləndiyini vurğuladı: "Gün ərzində mərkəzin hovuzunda 10 ton su 3 filtr vasitəsilə yenilənir və hovuz daim təmiz olur. İnsanların mərkəzə axın etməsinin səbəbi bilavasitə burda yaradılan yüksək şəraitlə əlaqədardır. Həmçinin idmançıların və digər insanların həyati təhlükə ilə üz-üzə qalmaması üçün xilasedicilər də var. Onlar hər zaman burda olur və hovuzda olanları daim diqqətdə saxlayırlar".

Sonda Ramin Talıbov yaradılan bu şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirərək dedi: "İdman sahəsində əldə edilən uğurların hamısı Naxçıvan Muxtar Respublikasında idmana göstərilən qayğının nəticəsidir. İdmanın inkişafı üçün yaradılan şəraitdən maksimum yararlanmağa çalışmalıyıq".

**Ceyhun MƏMMƏDOV**

*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan* – söyləmişdir dahi Nizami Gəncəvi...

## Peşə seçmək həyat tərzini seçmək deməkdir...

Elə indi lap yerinə düşdü bu mövzu. Universitetə qəbul imtahanları başlayıb. İmtahanlardan sonra isə ixtisas seçimi mərhələsi olacaq. Peşə seçimi ilə bağlı olaraq qeyd etmək istərdik ki, peşə seçimi heç də asan bir iş deyil. Gələcəkdəki həyat tərzimizin müəyyən dönüş nöqtəsi olan peşə seçimi insanın bütün həyatına və xoşbəxtliyinə təsir edən faktorlardandır. Peşə seçimi insana gələcəkdə cəmiyyət içində müəyyən mövqe qazandıracaq məsuliyyət anıdır. Peşə seçimi ilə qazanılan peşə, sahib olunan ixtisas insanın özünüifadəetmə vasitəsidir. Belə ki, hər bir fərd gələcəkdə məhz sahib olduğu peşəsi ilə ucalır. Bu yüksəliş o zaman baş verir ki, seçilən peşə, fəaliyyəti boyunca sahibi tərəfindən sevilir, onun məsuliyyəti lazımınca dərk edilir. Bütün bunların nəticəsində hətta bir vaxtlar peşə seçən fərd dövrünün şəxsiyyətinə çevrilir. Öz arzusuna uyğun peşə seçən kəslərin işlərini sevərək etdiyini, peşəsində irəlilədiyini, beləcə, həm coşqulu, həm xoşbəxt, həm də məhsuldar olaraq həyatlarını davam etdirdiyini görürük.

Müasir cəmiyyətdə insanın ən əhəmiyyətli inkişaf vəzifələrindən biri öz peşəsini seçməsidir. Bu seçimi edərkən əhəmiyyətli olan, insanın sahib olduğu xüsusiyyətləri ən yaxşı ifadə etməsinə imkan verən peşəni seçə bilməsidir. Bu mənada peşə seçmək həyat tərzini seçmək deməkdir. Bu səbəbdən doğru seçim çox əhəmiyyətlidir. Çox təəssüf ki, bəzən gənclər seçimini valideynlərinin istəyi ilə edirlər. Peşə seçimində əsas problemlərdən biri də məhz valideynlərlə bağlıdır. Onlar övladlarını öz istədikləri ixtisas sahibi kimi görmək istəyirlər. Amma övladlarının fikirlərini öyrənmirlər, onların qabiliyyətlərini nəzərə almırlar. Gənclər öz seçimləri olduğu halda, valideynin istəyi ilə başqa peşə seçməli olurlar. Belə olan halda valideynin istəyi ilə seçilən peşədə gənclər heç bir uğur qazana bilmir, çünki onların bu peşəyə sevgisi olmur. Hansı peşə olursa-olsun, fərq etməz, əsas odur ki, seçdiyin peşəyə sevgi və məhəbbət duyğusu olsun! Çox vaxt ailələr uşaqlarını istəmədikləri gələcəyi sevməyə məcbur edirlər, hətta övladının yerinə gələcək planlayanlar da olur: "Sən bilməzsən; yox, sən hələ uşaqsan; yox, sənin xoşbəxtliyini istəyirik..." və sair. Düzdür, əksər ailələr bu halqa xaricindədir, çünki övladına seçim şansı verən və bu seçimdə ona dəstək olan ailələr çoxdur.

Ailələr övladlarının doğru seçim etməsinə yardımçı olduqları qədər onların bu doğru seçimi nə dərəcədə sevəcəklərinə də diqqət etməlidirlər. Sevdiyin peşəni seçmək belə, kifayət deyildir; ən vacibi bu peşənin inceliklərinə yiyələnməkdir, bu peşəni cəmiyyət üçün yararlı bir fəaliyyətə çevirə bilməkdir.

**Nərgiz İSMAYILOVA**

### 2014-cü ilin iyun ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının QRAFİKİ

| № | Rayon (şəhər) | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1 | Sədərək rayonu | Heydərabad Qəsəbə Mərkəzi | 11.06.2014 | $11^{00}$ |
| 2 | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 12.06.2014 | $11^{00}$ |
| 3 | Şahbuz rayonu | Şahbuz şəhər "Araz" kinoteatrının binası | 13.06.2014 | $11^{00}$ |
| 4 | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 18.06.2014 | $11^{00}$ |
| 5 | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 19.06.2014 | $11^{00}$ |
| 6 | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 20.06.2014 | $11^{00}$ |
| 7 | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 24.06.2014 | $11^{00}$ |
| 8 | Naxçıvan şəhəri | Naxçıvan "Gənclik" Mərkəzi | 25.06.2014 | $11^{00}$ |

*İtmişdir*

Məmmədova Günay Əbülfəz qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Məmməd Əli oğlunun adına olan evin 3069 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti Tariyel Talıbova, əzizi **ƏRUS XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti Xaləddin Rüstəmova, anası **BƏYİM XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 499